

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 163 (21.064)

*28 avqust 2014-cü il, cümə axşamı*

**Gündəlik ictimai-siyasi qəzet**

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Babək rayonunda otuz bir min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 27 avqust 2014-cü il*

## İxracatda yüksələn dinamika davam edir

***Xarici iqtisadi əlaqələr iqtisadi potensialın mühüm göstəricilərindən biri hesab olunur.*** layihələr hesabına Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş malların xarici bazar- ləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi olub ki, bu da bir il öncəki göstəricini

Naxçıvan Muxtar Respublikası özünün müasir iqtisadi inkişaf mərhələsində sıx əlaqədə olduğu region ölkələri ilə xarici iqtisadi əlaqələrini genişləndirməkdədir. Yerli istehsal hesabına ərzaq və enerji təhlükəsizliyinin təmin olunduğu regionda dünyanın yüksək texnologiya istehsal edən aparıcı ölkələri ilə əməkdaşlıq edilir, qiymətli istehsal avadanlıqları və lüks istehlak malları alınıb gətirilir, naxçıvanlıların xarici ölkələrə turizm səfərləri artır. Eyni zamanda həyata keçirilən uğurlu layihələr hesabına Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş malların xarici bazarlara göndərilməsində, xaricdən gələn turistlərin sayında yüksək artım dinamikası davam etməkdədir. İndi Naxçıvandan başda elektrik enerjisi, mineral sular, daş məhsulları olmaqla, çoxlu sayda satışahazır sənaye və kənd təsərrüfatı məhsulları ixrac edilməkdədir. Bu isə muxtar respublikanın xarici ticarət həcminin artması ilə yanaşı, idxal-ixrac balansında da müsbət saldo yaranmasına imkan verir. Təkcə cari ilin ilk 7 ayının nəticələrinə görə, muxtar respublikada 270 milyon 821 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi olub ki, bu da bir il öncəki göstəricini 0,6 faiz üstələyib. İxracın həcmi son bir il ərzində 5,1 faiz artaraq 201 milyon ABŞ dollarını ötüb və xarici ticarət üzrə 132 milyon ABŞ dollarına yaxın həcmdə müsbət saldo yaranıb. Cari ilin iyun ayının yekunları ilə müqayisədə isə xarici ticarət həcmində 38 milyon 400 min ABŞ dollarından çox artım müşahidə olunub. Bu, bir ay ərzində 16,5 faiz artım deməkdir. Belə yüksələn dinamika ilin sonuna qədər ötənilki xarici ticarət dövriyyəsini üstələyəcəkdir.

**Xəbərlər şöbəsi**

## Bayrağımız qürur mənbəyimizdir

*Bayraq millətin şərəfi, onun milli varlığının təsdiqidir. Xalqın və dövlətin simvolu olan bayraq hər zaman ucalarda tutulur. Dövlət bayrağına ehtiram göstərilməsi hər bir vətəndaşın müqəddəs borcu, dövlətin suverenliyinə olan sevgi və hörmətinin göstəricisidir.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin*
*"Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında"*
*2014-cü il 22 avqust tarixli Sərəncamından*

Ulu öndər
Heydər ƏLİYEV:
***Gərək hər bir evdə Azərbaycan bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun.***

***Avqustun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında Sərəncam imzalamışdır. Naxçıvanda belə bir müqəddəs ünvanın yaradılması haqqında sərəncam dövlətimizin milli suverenliyimizə olan sevgi və hörmətinin nəticəsidir.***



Dünyada çoxsaylı cəhətləri ilə fərqlənən xeyli sayda xalqlar var. Yerləşdiyi coğrafi məkana, etnik-dini-mədəni köklərə görə bir-birindən fərqlənən bu xalqlar həm də özünəməxsus keyfiyyətləri özündə birləşdirən simvol və atributları ilə seçilir. Bu atributlardan məzmun etibarilə ən güclü təsir qüvvəsinə malik olan rəmz məhz bayraqdır. Bayraq hər bir xalqın milli mənsubiyyətini və düşüncə tərzini, daşıdığı idealların xarakterik məcmusunu özündə birləşdirir. Reallıq isə ondan ibarətdir ki, öz bayrağını dalğalandırmaq hər xalqa nəsib olmur. Bu gün Yer üzündə elə xalqlar var ki, toplum kimi mövcud olsalar da, müstəqillikləri yoxdur. Müstəqillik əldə olunmayıbsa, deməli, bayrağı da yoxdur. Bu baxımdan bayraq həm də azadlıq və müstəqillik rəmzidir. Azərbaycan xalqı milli bayrağını qaldırmaq üçün bir əsrdə iki dəfə mübarizə aparmalı olub və nəhayət, arzusuna qovuşub. Xalqımız ötən əsrin əvvəllərində dalğalandırdığı üçrəngli bayrağını elə həmin əsrin sonlarına yaxın yenidən yüksəklərə qaldırmağı bacarıb. Ancaq bunu etmək o qədər də asan olmayıb...

Üçrəngli bayrağımız hələ 1918-ci ilin 9 noyabrında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı kimi qəbul edilmişdi. Təcavüzkar XI Qırmızı Ordunun gəlişi ilə endirilmiş bayrağımız düz yetmiş il ərzində unudulmağa çalışılsa da, xalqın yaddaşında unudulmadı, ürəklərdə və xatirələrdə yaşadıldı. Bu bayraq həm də Şərqdə ilk demokratik quruluşa malik bir dövlətin simvolu idi. Nəhayət, 1990-cı ilin noyabrında ilk dəfə Naxçıvanda ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı azadlığın astanasında olan Azərbaycanın Dövlət bayrağı kimi yenidən qaldırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Naxçıvan Ali Sovetinin sessiyasında Naxçıvanda Dövlət bayrağı kimi rəsmən təsdiq edildi. Həmçinin Azərbaycan Ali Soveti qarşısında bu bayrağın Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında vəsatət qaldırıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti ilə 1991-ci il fevralın 5-də Azərbaycan Ali Soveti Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Bu Konstitusiya Qanunu ilə üçrəngli milli bayrağımız Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq edildi və bu müqəddəs istiqlal rəmzimiz bütün Azərbaycan üzərində dalğalanmağa başladı...

Az müddətdən sonra – 18 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" ilə Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etdi. İlk olaraq qardaş Türkiyə Respublikası ölkəmizin müstəqilliyini tanıdı. Mustafa Kamal Atatürkün vaxtilə söylədiyi ***"Azərbaycan bayrağının Türkiyə bayrağı yanında, Türkiyə səmasında dalğalanmasını görmək bütün millətimiz üçün böyük bir bayramdır"*** sözləri artıq həqiqətə çevrildi. İndi dünyanın bir çox dövlətlərinin səmasında, ölkəmizin səfirlikləri qarşısında Azərbaycan bayrağı – müstəqilliyimizin müqəddəs rəmzi dalğalanır.

Qeyd edək ki, Azərbaycan bir çox nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının tamhüquqlu üzvüdür, üçrəngli milli bayrağımız Avropanın mərkəzində dalğalanır, bizim varlığımızı, qüdrətimizi, gücümüzü bütün dünyaya nümayiş etdirir. Dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə bağlı keçirilən təntənəli mərasimdəki çıxışında milli bayrağımızın çox böyük önəm daşıdığını qeyd edərək demişdir: ***"Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşdu, öz həqiqi yerini tapır".***

Bəli, müstəqilliyimizin bərpasından keçən dövr ərzində ölkəmizdə milli atributlarımıza hər zaman böyük sevgi ilə yanaşılıb. Dövlətçiliyimizin, milli, mənəvi, əxlaqi dəyərlərimizin daşıyıcısı olan müqəddəs bayrağımıza ümummilli ehtiramın formalaşdırılması isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yürüdülən milli siyasətin aparıcı istiqaməti olub. Bayrağımıza olan ümummilli sevgi və ehtiram 2007-ci ildə paytaxt Bakı şəhərində Bayraq Meydanının yaradılması ideyasının reallaşdırılmasına gətirib çıxardı. Ölkə başçısının 17 noyabr 2009-cu il tarixli Sərəncamı ilə təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza, tarixi keçmişimizə və mənəvi-siyasi dəyərlərimizə dövlət səviyyəsində olan diqqət və ehtiramın ən yüksək səviyyədə göstəricisidir. Artıq beşinci ildir ki, 9 noyabr tarixi Azərbaycanda rəsmi olaraq "Dövlət Bayrağı Günü" kimi qeyd ediləcək. "Dövlət Bayrağı Günü" kimi məhz bu tarixin seçilməsi müstəqil Azərbaycanın Xalq Cümhuriyyətimizin varisi olaraq öz tarixinə xüsusi önəm verdiyini bir daha sübut etdi. Bununla da, Azərbaycanın hər bir regionunda bayraq meydanlarının yaradılması kimi yaşarı bir ənənənin əsası qoyulmuş oldu. Dövlət başçısı 2010-cu ilin 1 sentyabr tarixində Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində demişdir: ***"Bu bayraq bizim milli dəyərimizdir... Bu Bayraq Meydanının yaradılması Azərbaycanın gücünü, Azərbaycan xalqının öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızı göstərir…"***

Bir neçə gün bundan əvvəl, daha doğrusu, avqustun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında Sərəncam imzaladı. Sərəncamda deyildiyi kimi ***"...Bayraq millətin şərəfi, onun milli varlığının təsdiqidir. Xalqın və dövlətin simvolu olan bayraq hər zaman ucalarda tutulur. Dövlət bayrağına ehtiram göstərilməsi hər bir vətəndaşın müqəddəs borcu, dövlətin suverenliyinə olan sevgi və hörmətinin göstəricisidir..."*** Məhz yaxın zamanlarda bu müqəddəs sevgi və hörmətin ünvanı Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi olacaqdır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda belə bir müqəddəs ünvanın yaradılması həm də ona görə əhəmiyyətlidir ki, yetmiş ildən sonra üçrəngli bayrağımız məhz ilk dəfə bu torpaqda qaldırılıb. Müstəqil Azərbaycanın yoluna işıq salan milli qərarlar məhz bu bayrağın altında öz təsdiqini tapıb. Məsələnin digər əhəmiyyəti isə ondan ibarətdir ki, Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında Sərəncam Naxçıvanın muxtariyyət tarixinin 90-cı ildönümündə imzalandı.

***Bəli, Naxçıvan şəhərinin qərb tərəfdən giriş hissəsində yüksək bir ərazidə yerləşən Dövlət Bayrağı Meydanı həm də şəhərimizə gələn qonaqların qarşılaşdığı ilk mənzərə olacaq. O yüksəklikdə ki, bayrağımız burada məcazi yox, həm də təbii olaraq dalğalanır. Azərbaycanın müstəqilliyinin carçısı, Naxçıvanın isə bu müstəqilliyə aparan yolun başlanğıcı kimi...***

**Səbuhi HƏSƏNOV**

# Böyük şəhərlərə gedən yol kiçik kəndlərdən başlayır

## *Bu gün tikinti meydançasını xatırladan Nursu kəndi həmin kiçik yaşayış məntəqələrindən biridir*

***Şahbuz rayonunun Nursu kəndinə getdiyimiz avtomobildə radioda dinlədiyim şerin bir misrası bu yazıya giriş oldu: böyük şəhərlərə gedən yol kiçik kəndlərdən başlayır. Həmin misra yol boyu düşüncələrimə hakim kəsildi. Yazını hazırlayarkən də bu misranın ifadə etdiyi məna məni, necə deyərlər, öz orbitindən buraxmadı. Ustad şairimiz Məmməd Arazın da bu kiçik kənddən böyük şəhərə yol aldığını təsəvvürümdə canlandırmağa çalışdım. O anda yadıma şairin bir qədər nisgillik duyulan “Kəndim, balacasan” şeri düşdü:***

*Kəndim, balacasan, çox balacasan,*<br>
*Adın yox dünyanın xəritəsində.*<br>
*Atılıb qalmısan gözlərdən uzaq,*<br>
*Çaylı, baldırğanlı dağ dərəsində.*

O kənd ki, Məmməd Araz hələ Məmməd Araz olmamışdan rayondan kənarda tanınmırdı. Məmməd İnfil oğlu Məmməd Araz olandan sonra bu yurd yerini bütün Azərbaycanda tanıtdı. Bu gün o kənd gözlərdən uzaqda deyil. Bu barədə kəndə çatdıqdan sonra danışacağıq. Hələlik isə yol gedirik. Yol yoldaşlarımın hamısı Şahbuz rayonundandır. İlk tanışlıqdan onların səmimi, mehriban və maraqlı müsahib olduqlarını hiss etdim. Yol yoldaşlarımdan biri – rayon İcra Hakimiyyətinin əməkdaşı Söhrab müəllim məni xəyallardan ayırır:

– Məmməd Araza görə bu kənd həmişə qonaqlı-qaralı olub. Ölkəmizin paytaxtından, sovet dönəmində hətta digər müttəfiq respublikalardan Nursuya çoxlu qonaqlar gəlib. Şairin boya-başa çatdığı bu yurd yerinin füsunkar gözəllikləri onları da əfsununa alıb. Bu gün tikinti meydançasını xatırladan kənddə bir vaxtlar şairin yaşadığı evin yerində Məmməd Araza böyük hörmət əlaməti olaraq inşa edilən muzey binası başa çatdıqdan sonra kəndə gələnlərin sayı daha da çox olacaq.

Bir qədər sonra əlavə edir:

– Bu gün Məmməd Arazın çoxlarının dilinin əzbəri olan şeirlərindən hansısa bu yollarda misralanıb. Bu yolların sığındığı və möhtəşəmlik, ucalıq rəmzi kimi başbaşa verən Toğluqaya, Səngərtəpə, Motalqaya, Çadırlıdaş dağları, bu dağların otu, gülü-çiçəyi, dumanı, leysanı, küləyi, Şahbulaq, Kazımbulaq, Qubadbulaq, Yeddibulaq, Novlu, Kəklikli çeşmələri onun ilk ilham mənbəyi olub. “Mən uca dağlara babam demişəm”, – deyən şairin ömrünün sonuna qədər ilham mənbəyi bu təbii gözəlliklər olub. Onun şeirlərindən qəlbimizə süzülən xoş duyğuların təməli elə bu mənbədən qaynaqlanıb. Bu mənbədən qaynaqlanan hansı şerini yada salsaq, şair qəlbinin vətəndaşlıq poeziyası öz qollarını şeirsevərlərə açacaq.

Budur, yol kənarında bizi şairin böyük portreti qarşılayır. Bu zaman şairin aşağıdakı misralarını xatırlayıram:

*Kəndim, balacasan, çox balacasan,*<br>
*Kəklik fərəsinin sayına görə,*<br>
*Bulud nərəsinin sayına görə,*<br>
*Aylı gecələrin sayına görə,*<br>
*Tozlu küçələrin sayına görə*<br>
*Bəlkə də, dünyada birinci kəndsən.*

Bir az qırağda yola asfalt salan texnikaları görüb söhbətə avtomobilin sürücüsü Zahid də qarışır:

– Baxın, şəhər yollarından seçilmir. Kəndarası yollara da asfalt salınacaq.

Deməli, onda şairin nisgilliklə söylədiyi tozlu küçələr də olmayacaq. O gün isə uzaqda deyil. Ruhu şad olsun Məmməd Arazın, istəkləri gerçəyə çevrilir. Kəndə yaxınlaşırıq. Girəcəkdə xidmət mərkəzi tikilir. Kənd sakinləri tikintinin yaxınlığında ikibir, üçbir toplaşıb söhbət edirlər. Bir qədər aralıda həkim ambulatoriyası, sonra məktəb, yolun solunda isə kənd mərkəzi inşa olunur. Bizimsə, ilk olaraq, üz tutacağımız tikinti obyekti Məmməd Arazın ev-muzeyinin inşa edildiyi ünvandır. Burada kəndin yetirməsi, filologiya üzrə fəlsəfə doktoru Arif Ağalarovla görüşürük. Hal-əhval tuturuq. Doğma kəndində dincəlməyə gəlib. Zarafatla deyir ki, şəhərin hay-küylü səsindən qaçmışam. Dövlətimizin gözəl şairimizin xatirəsinə göstərdiyi diqqətdən onun da sevindiyini hiss etmək çətin deyil. Elə digər nursulular da böyük fərəh içindədirlər. Arif müəllim belə qayğı üçün kənd adamları adından minnətdarlığını bildirir:

– Muxtar respublikamızda sənət adamlarına göstərilən qayğı hamımızı sevindirir. “Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı Sərəncam Məmməd Arazın şəxsiyyətinə və yaradıcılığına böyük diqqət və ehtiramın ifadəsidir. 80 illik yubileyin yüksək səviyyədə təşkili Məmməd Arazsevərlərin yaddaşında daim yaşayacaq. Bunun ardınca Ali Məclis Sədrinin “Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında” Sərəncamı bu sevincimizə daha bir sevinc qatdı. Ustad şairin dağların ətəyinə sığınan öz kəndində ev-muzeyinin tikintisi sənətkara verilən ən böyük qiymətdir. Vətənpərvər şairimizin ruhuna böyük hədiyyə olan muzey kəndin müqəddəs ünvanlarından birinə çevriləcək.

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru Adil Bağırov da bu kəndin yetirməsidir. Onunla kəndin adının etimologiyası barədə söhbət edirik. Alimin gəldiyi elmi qənaət belədir ki, “Nursu” qədim toponimdir və bu adın ilkin variantı “Nurs” şəklində olub. Çoxmənalı “nur” sözü “aydınlıq”, “işıq”, “parlaqlıq”, “şərəf”, “şan” , “dağ silsiləsi”, “sıra dağlar”, həm də “göl” anlamında işlənir. Adın ikinci tərəfi isə “su” sözündən ibarətdir. Deməli, “Nursu” sözü “dağ silsilələri”, “sıldırım dağlarda yerləşən göl, su” mənasına uyğun gəlir və bu fikir kəndin relyef quruluşu, ərazisində çoxlu su mənbələrinin olması faktı ilə təsdiqlənir. Elə bunun nəticəsidir ki, kəndin adı “Nursu” kimi rəsmiləşdirilib.

Onlarla muzey üçün tikilən binaya daxil oluruq. Sürətli iş ahəngi hakim kəsilən tikintidə keyfiyyət amilinə ciddi diqqət yetirilir. İnşaatçılar çalışırlar ki, öhdələrinə götürdükləri iş ustad sənətkarın adına layiq olsun. İş icraçısı Rasim Səfərov bildirir ki, muzey, ümumilikdə, 5 otaqdan ibarətdir. Binada hörgü işləri əsasən başa çatdırılıb. Çardaq hissə qurulub, daimi su xətti çəkilib. İstilik sisteminin qurulmasına hazırlıq işləri aparılır.

Kəndin mərkəzindəki tikinti obyektlərinə yaxınlaşırıq. Həmin obyektlərdən biri kənd məktəbinin binasının yenidən qurulmasıdır. İki mərtəbədən ibarət olan məktəb binası 234 şagird yerlikdir. Məktəb binasına əlavə bir korpus artırılıb. Burada idman zalı, 2 laboratoriya, 2 elektron lövhəli sinif yerləşəcək. İnşaatçılara hərtərəfli şərait yaradılıb. Buraya kifayət qədər texnika və işçi qüvvəsi cəlb edilib. Bu isə inşaat işlərinin sürətlə və keyfiyyətlə aparılmasına imkan verib.

Bir qədər Nursu kəndində yaradılmış təhsil ənənələrindən bəhs etmək istəyirik. Bu barədə kənd məktəbinin müəllimi Rəqsanə Məhərrəmova danışır. Deyir ki, bu qədim yaşayış məntəqəsi ilə öyünməyə hər bir nursulunun mənəvi haqqı var. Nursu kənd tam orta məktəbində ilk təhsillərini alan alimlərdən Firudin Hüseynov, Adil Bağırov, Arif Ağalarov, İbrahim Kazımbəyli, Zülfəli İbrahimov və başqaları bu kəndin yetirmələridir. Sözsüz ki, Nursuya böyük şöhrət qazandıran belə insanların fövqündə Məmməd Araz dayanır. Bu haqqı o, hələ sağlığında qazanıb. Düşünürəm ki, əbədi olaraq bu haqqı yaşadacaq. Yeni məktəb binasının tikintisi imkan verəcək ki, uzun illərdən bəri qazanılmış və qorunub saxlanılmış maarifçilik ənənələri yeni müstəvidə davam etdirilsin.

Ötən dərs ilinin uğurlarından da söhbət açan Rəqsanə müəllimə bildirdi ki, 2013-2014-cü tədris ilində məktəbi bitirən 8 məzundan 5-i və əvvəlki illərin 1 məzunu olmaqla, 6 məzun yüksək ballarla ali məktəblərə qəbul olunublar. Bu, məktəbin pedaqoji kollektivini sevindirsə də, arxayın salmır. Çünki dövlətimizin bizə göstərdiyi qayğı böyükdür. Böyük qayğıya isə böyük əməli nəticələrlə cavab verməyə çalışacağıq.

Digər bir obyektdə də sürətli iş ahəngi diqqətimizi çəkir. Bu, kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar. Mərkəzdə icra nümayəndəliyi, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub, kitabxana, polis sahə və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. Həmçinin mərkəzdə rabitə evi və poçt bölməsi də yerləşəcəkdir.

Nursululara göstərilən səhiyyə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə kənddə inşa olunan həkim ambulatoriyası da 2 mərtəbədən ibarətdir. Kənd sakinləri Nursuda tikilən xidmət mərkəzini onlara göstərilən növbəti dövlət qayğısı kimi dəyərləndirirlər. Hazırda obyektdə son tamamlama işləri aparılır.

***Məmməd Arazın qürurla qələmə aldığı göyü papaq kimi başına geyən, üstündən qartallar ötüşə bilməyən, qayalarına, daşlarına yağışlar, dumanlar yetişə bilməyən doğma kəndinə gəlişimizdən iki saata yaxın vaxt ötüb. Ancaq vaxtın necə ötdüyündən xəbərimiz olmayıb. İki saatın yaratdığı təəssürat isə bir qəzet yazısına sığası deyil. Nursunun yurd qədri bilən insanları ilə, kəndin yetirmələri, dövlətimizin Nursuya və nursululara göstərdiyi qayğı barədə söhbətlər qəlbimizdə yüksək duyğular yaratdı. Bunun başlıca səbəbi ustad Məmməd Arazın arzularının dövlətimiz tərəfindən reallaşdırıldığını görməyimiz idi. Yadıma şairin öz şeirlərində nisgilliklə qələmə aldığı məqamlar düşdü. Artıq Nursu gözlərdən uzaqda deyil, yenidən qurulmaqda, bu kiçik kənddən böyük şəhərlərə gedən yol daha da genişlənməkdədir.***

**Muxtar MƏMMƏDOV**

---

# Payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələr müzakirə edilib

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində payız-qış mövsümünə hazırlıqla bağlı yığıncaq keçirilib. Yığıncağı giriş sözü ilə kənd təsərrüfatı naziri Elşad Əliyev açaraq 2014-cü il avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə nazirliyə verilmiş tapşırıqların icrası ilə əlaqədar tərtib edilmiş tədbirlər planının icrası haqqında məlumat verib.*

Yığıncaqda nazirliyin şöbə müdirləri Əyyub Abdullayevin, Ədalət Hüseynovun çıxışları olub. Qeyd edilib ki, heyvandarlıq, quşçuluq və arıçılıq təsərrüfatlarının qışlamaya hazırlanması məqsədilə müvafiq tədbirlərin yerinə yetirilməsi, mal-qara, quş və arı ailələri saxlanılacaq binaların təmir edilərək saz hala salınmasına və dezinfeksiya edilməsinə, yem ehtiyatının tədarükünün aparılmasına diqqət yetirilməlidir. Sentyabr və oktyabr aylarında taxıl əkinləri mütəşəkkil qaydada aparılmalı, taxıl əkinlərinin regionun kəskin kontinental iqlim şəraitində qış şaxtalarından qorunması üçün rayonlaşdırılma əsas götürülərək keyfiyyətli şum qaldırılmalı, şumdan əvvəl sahəyə üzvi və mineral gübrələr səpilməlidir. Həmçinin vurğulanıb ki, yazlıq əkinlər üçün öz istehsalından tədarük edilmiş tərəvəz, bostan, dənli bitkilər, yem bitkiləri və sair toxumların dərmanlanaraq anbar şəraitində saxlanılması toxumların keyfiyyətinə müsbət təsir edir. Bu məsələ diqqətdə saxlanılmalıdır.

Tədbirə kənd təsərrüfatı naziri Elşad Əliyev yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

---

# Abonentlər fasiləsiz və təhlükəsiz təbii qazla təmin olunurlar

***Abonentlərin fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi, xətt təsərrüfatında baş verə biləcək hər hansı bir nasazlığın vaxtında aradan qaldırılması üçün “Naxçıvanqaz” İstehsalat Birliyi və onun tabeliyində olan şəhər və rayon Qaz İstismarı idarələri tərəfindən 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kompleks tədbirlər həyata keçirilir. “Naxçıvanqaz” İstehsalat Birliyinin direktoru Ramin İsmayılovun verdiyi məlumata görə, muxtar respublikada, ümumilikdə, 1 avqust 2014-cü il tarixə 83 min 319 istehlakçı təbii qazdan istifadə edib ki, onlardan 629 abonent, 126 müəssisə cari ilin ilk 7 ayında təbii qazla təmin olunub.***

Muxtar respublikanın qaz təsərrüfatında istismar edilən 7522,7 kilometr uzunluqlu müxtəlif diametrli, müxtəliftəzyiqli qaz kəmərləri, ümumi yeraltı qaz kəmərlərini korroziyadan qorumaq məqsədilə quraşdırılan mühafizə qurğuları, katod stansiyaları mütəmadi olaraq ay ərzində qrafik üzrə yoxlanılır və nizamlanır. Həmçinin Naxçıvan-Sədərək magistral qaz kəməri üzərində istismarda olan 6 ədəd avtomat qazpaylayıcı stansiyalarda odarant qurğusu quraşdırılıb və işə salınıb. Culfa-Naxçıvan yeraltı yüksəktəzyiqli, diametri 530 millimetrlik magistral qaz kəmərinin 7-ci və 8-ci kilometrində borunun dayanıqlılığını və etibarlılığını saxlamaq məqsədilə selovda dayaq betonlaşdırılıb. Bu qaz kəmərləri üzərində qrafikə uyğun gəzinti-nəzarət işləri həyata keçirilib, dörd nöqtədə qaz sızması aşkar edilərək aradan qaldırılıb. Naxçıvan şəhər, Şahbuz və Babək rayonlarının daşıyıcı qaz kəmərlərinin ölçü qovşaqlarında ROK-407 tipli qaz sayğaclarında mövsümlə əlaqədar diafraqmalar dəyişdirilib. Qaz təsərrüfatında istismarda olan 131 ədəd qaz quyularına texniki xidmət göstərməklə yanaşı, köhnə avadanlıqlar dəyişdirilərək yenisi ilə əvəz olunub, müşahidə edilmiş bütün sızmalar aradan qaldırılıb.

Yeraltı və yerüstü qaz kəmərlərinin marşrut xəritələri tərtib edilib, gəzmə üsulu ilə, qaz analizatorları vasitəsilə sızmaların aşkar edilib aradan qaldırılması, qaz təsərrüfatında paylayıcı qaz kəmərlərinin istismarında qaz itkisinin müəyyənləşdirilməsi üçün müvafiq tədbirlər görülüb. Muxtar respublikanın qaz təsərrüfatında 221 ədəd müxtəlifhəcmli yeni qaz tənzimləyicilər quraşdırılıb.

Qaz təsərrüfatında baş verə biləcək qəzaların nəticələrinin aradan qaldırılması və yeni obyektlərin, evlərin qısa müddətdə qazlaşdırılması məqsədilə birlik və ona tabe olan Qaz İstismarı idarələrində mal-materialların ehtiyat fondu yaradılıb.

Muxtar respublikanın qaz şəbəkəsində qaz sızmalarının vaxtında aşkarlanıb aradan qaldırılması məqsədilə şəhər-rayon Qaz İstismarı idarələrinə 36 ədəd dedektor qurğusu paylanıb.

Ordubad rayon Parağaçay qəsəbəsinin qazlaşdırılması məqsədilə diametri 63 millimetr, uzunluğu 8000 poqonometr olan qaz kəmərinin çəkilişi başa çatdırılıb, Sədərək gömrük-keçid məntəqəsi və “N” sərhəd məntəqəsinədək daşıyıcı qaz kəmərinin diametri 76 millimetr, uzunluğu 4500 poqonometr olan dəmir borunun diametri 63 millimetr polietilen boru ilə yeraltı çəkilişi davam etdirilir.

Qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, eləcə də onlar üzərindəki kranlara, siyirtmələrə və qaztənzimləyici şkaflara müntəzəm olaraq texniki baxış keçirilib, aşkar edilmiş nöqsanlar aradan qaldırılıb. İstehlakçılara verilən təbii qazın təzyiqinə hər ay texnoloji rejim tətbiq edilib və ölçü qovşaqlarında nəzarət işi diqqətdə saxlanılıb.

Qaz itkisi olan istiqamətlərin müəyyən edilməsi və onları doğuran səbəblərin aradan qaldırılması üçün təxirəsalınmaz işlər görülüb, sızmaların aradan qaldırılması üçün təmir-bərpa işləri aparılıb.

Abonentlərin təhlükəsizliyi də diqqət mərkəzində saxlanılıb, baş verə biləcək hər hansı bir qəzanın vaxtında aradan qaldırılması üçün şəhər və rayon Qaz İstismarı idarələrində qəza dispetçer xidmətlərinin 24 saat fəaliyyəti təmin edilib.

Təbii qazın itkisiz olaraq yerlərə çatdırılması, israfçılığın qarşısının alınması və sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi ilə əlaqədar tədbirlər davam etdirilib, istismarda olan qaz sayğaclarına mütəmadi olaraq baxışlar keçirilib, cari təmirə ehtiyacı olan sayğaclar təmir olunub, 18 min 773 ədəd sayğac yenisi ilə əvəzlənib.

Məlumatda bildirilir ki, 2014-cü ilin 7 ayında enerji istehsal edən müəssisələr nəzərə alınmadan istehlak olunan 113 milyon 445 min 241 kubmetr qazın satışından 10 milyon 498 min 410 manat vəsait toplanıb, ödəmə 92,6 faiz olub. Əhali abunəçiləri üzrə istehlak olunan 66 milyon 981 min 130 kubmetr qazın satışından toplanan vəsait 6 milyon 71 min 302 manata çatıb ki, bu da 90,6 faiz ödəmə deməkdir.

**Kərəm HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası – 90*

# Tariximizin öyrənilməsi, təbliği və tanıdılmasında muxtariyyət yaşıdı Naxçıvan Dövlət Tarix Muzeyi xüsusi rol oynayıb

***1924-cü ildən başlayaraq tariximizin öyrənilməsi və təbliğinə başlayan Naxçıvan Dövlət Tarix Muzeyinin uğurlu fəaliyyəti 1969-cu ildən sonrakı dövrə təsadüf edir. Görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra muzeylərin inkişafı və onların nüfuzunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq Azərbaycan muzeyləri, o cümlədən Naxçıvan Dövlət Tarix Muzeyi nəinki mədəni xidmət ocaqları, həm də elmi-tədqiqat bazaları kimi fəaliyyət göstərməyə başlayır, onların əlaqələri genişləndirilir. Həmin dövrdən etibarən Naxçıvan Dövlət Tarix Muzeyinin də fəaliyyətində bir çox yaddaqalan hadisələr və əlamətdar günlər baş verir. Bunlardan biri 1969-cu ilin oktyabr ayında Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən tariximizin elmi əsaslarla yenidən öyrənilməsi və tədqiq edilməsi ilə bağlı Naxçıvana ezam olunmuş elmi ekspedisiyanın Naxçıvan Dövlət Tarix Muzeyində keçirdiyi elmi-nəzəri konfransdır. Həmin konfransda Naxçıvanın tarixi ilə bağlı maraqlı elmi məruzələr dinlənilmiş və müzakirələr keçirilmişdir.***

Bəşər tarixinə böyük töhfələr bəxş edən qədim Naxçıvanın tarixi uzun illər yad ölkələrdən, xüsusilə çar Rusiyası tərəfindən ölkəmizə göndərilənlərin səthi və yanlış məlumatları əsasında öyrənilməyə çalışılmışdır. Onlar real faktları, tarixi həqiqətləri bir kənara qoyaraq, özlərinə sərf olunan şəkildə məlumatlar verir, əldə etdikləri maddi sübutları gəldikləri ölkələrə daşıyıb aparırdılar. Bu səbəbdən də ötən əsrin əvvəllərinə qədər çar üsul-idarəsinin, sonralar isə şura hökumətinin yürütdüyü ideoloji siyasətin nəticəsi idi ki, yerli mütəxəssislərin yetişməsinə imkan verilməmiş, nəticədə, qədim tariximizin öyrənilməsinə, tədqiq edilməsinə daha çox yad qüvvələr müdaxilə etmişlər.

XX əsrin 20-30-cu illərindən etibarən Sovet hakimiyyətinin möhkəmləndirilməsinə, sosialist ideologiyasının tüğyan etməsinə baxmayaraq, 60-cı illərin sonunda Azərbaycanın ictimai-siyasi həyatında mühüm dəyişikliklər baş verdi. Xalqımızın böyük oğlu Heydər Əliyevin 1969-cu ildə Azərbaycanın rəhbəri seçilməsi ilə Azərbaycan tarixində yeni inkişaf dövrünün başlanğıcının əsası qoyuldu. Bütün sahələr kimi, qədim tarixi və mədəni irsimizin yenidən öyrənilməsi və tədqiqi sahəsinə də yaşıl işıq yandırıldı. Azərbaycanda elmi potensialın inkişaf etdirilməsi yerli mütəxəssislərin hazırlanması və onların elmi-tədqiqat işlərinə cəlb olunmaları üçün şəraitin yaradılmasına, tariximizin köklü şəkildə araşdırılması və yeni tarixi faktların üzə çıxarılmasına zəmin yaratdı.

Həmin dövrdə Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən Naxçıvan tarixinin yenidən araşdırılması və tədqiqi ilə bağlı 20 gün müddətinə Naxçıvana ezam olunmuş elmi ekspedisiyanın da əsas məqsədi Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 50 illik və Naxçıvanın muxtariyyətinin 45 illik yubileyləri ilə əlaqədar keçiriləcək dövlət tədbirlərinə Naxçıvanın tarixi haqqında elmi məruzələr təqdim etməkdən ibarət idi. Tanınmış tədqiqatçı alimlərdən Osman Həbibullayevin rəhbərliyi ilə akademiyanın elmi əməkdaşlarından Məhəmməd Nəsirli, Rəbiyyə Qasımova və başqa elmi ekspedisiya üzvləri 1969-cu ilin oktyabrında Naxçıvana ezam olunmuşlar. Həmin elmi ekspedisiya Naxçıvanın tarixinin yenidən araşdırılmasında yerli kadrların da imkanlarından geniş istifadə etmiş, Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının direktoru, tarix elmləri namizədi Əli Əliyevi, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Əbdülqasım Sultanovu, həmçinin həvəskar tədqiqatçılardan muzeyin elmi katibi Məmməd Məmmədovu, baş elmi işçi Kamal Qasımovu və başqalarını ekspedisiya işlərinə cəlb edərək birlikdə Naxçıvan ərazisində, o cümlədən Şahbuz rayonunda tədqiqat işləri aparmışdır.

1969-cu ilin noyabrında Naxçıvan Dövlət Tarix Muzeyində Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutu elmi-tədqiqat işlərinin yekunu olaraq, muzeylə birlikdə elmi-nəzəri konfrans keçirmiş, konfransda Naxçıvanın qədim tarixinin öyrənilməsinin əsas məsələləri, Azərbaycanda antropologiya elminin inkişaf məsələləri, Naxçıvanda sovet dövrünün tarixi, muxtar respublikanın etnoqrafiya tarixinin öyrənilməsi məsələləri geniş müzakirə edilmişdir. Məruzələrin icmalları ilə tanış olarkən məlum olur ki, elmi ekspedisiyanın rəhbəri O.Həbibullayev Naxçıvanın tarixi ilə bağlı maraqlı faktlar söyləyərək bildirmişdir ki, şəhərlərin yaranması tarixini yazılı məlumatlarla dəqiqləşdirmək mümkün deyildir. Naxçıvanın qədimliyini sübuta yetirmək üçün şəhərin maddi-mədəniyyət qalıqları ilə zəngin olan abidələrini qoruyub saxlamaq və onların ətrafında geniş arxeoloji qazıntılar aparmaq lazımdır. Ekspedisiya rəhbəri qeyd etmişdir ki, XIX əsrin 90-cı illərində Naxçıvan ərazisində təsadüfən aşkara çıxarılmış qədim maddi-mədəniyyət nümunələri sonralar Naxçıvanın tarixinin daha dərindən öyrənilməsinə maraq doğurmuş, 1926-cı ildə sovet alimlərindən İ.İ.Messaninov, A.A.Miller, 1934-cü ildə Azərbaycan arxeoloq-etnoqrafı Ə.Ələkbərov, 1950-1964-cü illərdə akademiyanın Tarix İnstitutunun tədqiqatçıları qədim diyarın ərazisində tədqiqat işləri aparmış, eramızdan əvvəl ikinci minilliyin birinci yarısında Naxçıvan şəhəri ərazisində yüksək mədəniyyətə malik olan əhalinin yaşadığı sübut edilmişdir. Ekspedisiya rəhbəri onu da bildirmişdir ki, 1968-ci ildə Naxçıvan şəhərinin şimal hissəsində torpaq işləri apararkən 2 metr dərinlikdən çıxarılmış arxeoloji materiallar böyük elmi əhəmiyyətə malik olmaqla bərabər, tapılmış 59 ədəd rəngli boyalı qablar, tunc bəzək əşyaları, muncuqlar Naxçıvan mədəniyyətinin eramızdan əvvəlki XVII-XV əsrlərə aid olduğunu göstərir.

Ekspedisiya üzvü, tədqiqatçı-alim Məmməd Nəsirlinin məruzəsində bəzi Qərb alimlərinin Qafqaz ərazisində ilk insanların – paleolit insanlarının mövcud olmamaları fikirlərinə aydınlıq gətirilir və sübut edilir ki, bəşər övladının ilk yaşayış məskəni kimi Naxçıvan bütün tarixi dövrlərdən, o cümlədən qədim Daş dövründən üzü bəri ardıcıl olaraq insanların yaşadığı yurd yeri kimi tanınmışdır.

Naxçıvan Dövlət Tarix Muzeyində keçirilmiş elmi-nəzəri konfransda ekspedisiya üzvü, bioloq-alim R.Qasımov bildirmişdir ki, sovet antropologiya elmi ən qədim dövrlərdə yaşamış insanla və müasir insanın kəllə sümüklərində baş verən bioloji dəyişiklikləri öyrənmiş və məlum olmuşdur ki, Qafqazda dörd əsas antroloji qrup mövcuddur. Naxçıvan kaspi antroloji tiplərin ən çox müşahidə edildiyi ərazilərdən biridir. Ona görə də Naxçıvan şəhər mədəniyyətinin dərindən öyrənilməsi tarix elmi üçün böyük əhəmiyyət kəsb edir.

Naxçıvanlı tarixçi-alim Əli Əliyev həmin konfransda Naxçıvan tarixinin çox mühüm məqamlarına toxunmuş, kiçik əraziyə malik, lakin böyük tarixi hadisələrə şahidlik edən Naxçıvanın muxtariyyət statusuna sahib olmasını böyük tarixi hadisələrin nəticəsi kimi qiymətləndirmişdir. 1917-ci ildə çar Rusiyasının devrilməsindən istifadə edən Naxçıvanın demokratik qüvvələri – Mirzəlibəy Bəktaşi, Hacı Mirbağır Mirheydərzadə, Məmməd Rəhimov, Məşədi Əhməd Əzimov və başqaları əhalini demokratik hərəkata qaldırmış, imperialist təcavüzkarlarına və daşnaklara qarşı 1918-ci ildə ciddi müqavimət göstərmişlər. Ölkəyə yeridilən ingilis-amerikan hərbi qüvvələri Naxçıvan ölkəsinin "bitərəf zona" adı altında müstəmləkələşdirilməsinə cəhd göstərsələr də, həm onlara, həm də erməni daşnaklarına qarşı Naxçıvanda, Ordubadda özünümüdafiə hərəkatı başlamış, silahlı müdafiə dəstələri təşkil edilmişdir. 1919-1920-ci illər hərəkatında sıravi əhalinin, o cümlədən Hüseyn və Rəcəbalı Salman oğlanlarının, Heydərqulu Həsənovun, Həsən Şahverdioğlunun, Qasım Hüseynovun, Ələkbər Sadıqovun, İbrahim Fərzəliyevin, Yetimqulu Əkbərin, Yusif Seyidovun, Yusif Salayevin, Həsən Əliyevin, Fərəməz Mahmudbəyovun və başqalarının böyük



xidmətləri olmuş, "Qırmızı tabor" və "Naxçıvan polku" Şahtaxtı, Xok, Oğlanqala məntəqələrində yerləşən daşnak qoşunlarının məhv edilməsində xüsusi hünər göstərmişlər.

1969-cu ilin oktyabr ayında Naxçıvan Dövlət Tarix Muzeyində keçirilən konfransda muzeyin əməkdaşlarından Kamal Qasımov və Məmməd Məmmədovun da iştirak etdiyi Şahbuz rayonuna təşkil edilmiş elmi ekspedisiyanın əsas məqsədinin rayonun kəndlərinin tarixini, mədəniyyətini, iqtisadi və məişət həyatını, həmçinin qədim, orta və yeni dövrə aid olan təpələri, abidələri, qədim yaşayış məskənlərinin yerini öyrənmək, gələcəkdə tədqiq etməkdən ibarət olduğu bildirilmişdir. Kükü kəndindən başlanılan tədqiqat insanların əsas məşğuliyyətinin maldarlıq olduğunu müəyyən etmişdir.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Ə.Sultanov Azərbaycanda Sovet hakimiyyətinin 50 illiyi və Naxçıvan muxtariyyətinin 45 illiyi ərəfəsində Naxçıvana təşkil edilən elmi ekspedisiyanın əhəmiyyətindən danışmış, ekspedisiya müddətində qədim insanların məişətini, təsərrüfatını, onların müxtəlif peşələrə mənsubiyyətini əks etdirən çoxlu maddi-mədəniyyət nümunələri əldə etdiyini qeyd edərək, bu mənbələrin həm də muzey tamaşaçılarının xalqımızın qədim mədəniyyət xəzinəsinə nüfuz etmələrini asanlaşdıran ən qiymətli sərvət olduğunu bildirmişdir.

Milli tariximizin təbliği və nümayişi zəminində Azərbaycanda muzey irsinin yenidən qurulması, geniş muzey şəbəkəsinin yaradılması istiqamətində görkəmli dövlət xadimi Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində həyata keçirdiyi tədbirlərin davamı olaraq, bu gün ölkə Prezidentinin bu sahənin inkişafı ilə bağlı imzaladığı qərar və sərəncamlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gördüyü ardıcıl tədbirlər nəticəsində muxtar respublika muzeyləri nəinki regional xarakterli tədbirlərin, hətta 1996-cı ildən bu günə qədər Naxçıvanda keçirilən beynəlxalq simpozium, konfrans və seminar iştirakçılarının, beynəlxalq turizm və idman yarışı nümayəndələrinin, ayrı-ayrı dövlət başçılarının, səfirlərin maraqla ziyarət etdikləri məkana çevrilmişdir. Muzeylərimizin nüfuzunun artması, muzey sərvətlərinin araşdırılması, tədqiqi əsasında müxtəlif xarici dillərdə elmi kitabların nəşr edilərək yayımlanması dünya xalqlarının tariximizlə yaxından tanış olmalarına şərait yaratmışdır.

*90 illik muxtariyyətimiz dövründə tariximizin öyrənilməsi, təbliği və tanıdılması istiqamətində bütün muzeylərimizlə bərabər, muxtariyyət yaşıdı Naxçıvan Dövlət Tarix Muzeyinin də xüsusi rolu və fəaliyyəti olmuşdur.*

**Nəzakət ƏSƏDOVA**
***Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi***

İbtidai təlim dövrü uşaq həyatının çox əhəmiyyətli mərhələlərindən biridir. Bu zaman onun təbii imkanlarının üzə çıxması üçün hər cür şərait yaratmaq mümkündür. Şagirdlərdə müxtəlif qabiliyyət və yönümün vaxtında üzə çıxarılması, möhkəmləndirilməsi, materialın şüurlu

# Təhsildə inteqrasiya

surətdə mənimsədilməsi, onların idrak qabiliyyətlərinin inkişaf etdirilməsi üçün təlimin inteqrasiyası vacibdir. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)"nda təhsilin inteqrativliyi əsas prinsip kimi nəzərdə tutulmuşdur. Milli kurikulum təhsildə fəndaxili və fənlərarası inteqrasiyaya xüsusi önəm verir. Müxtəlif sahələr üzrə biliklərin inteqrasiyası şagird təfəkküründə ətraf aləm haqqında vahid, sistemli dünyagörüşün formalaşmasına kömək edir.

İnteqrativ kurikulum şagirdyönümlü, humanistləşən təhsilin fəlsəfəsidir və təlim strategiyalarının qurulması işində böyük rol oynayır. Qeyd olunan konsepsiyada ümumi təhsilin pillələri və bu pillələr arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik inkişaf etdirilməsi vacib pedaqoji tələb kimi qoyulmuşdur.

"İnteqrasiya" termini XX əsrin sonundan daha fəal istifadə olunmağa başlasa da, onun ifadə etdiyi mahiyyət və məzmun həyat yarandığı gündən mövcud olmuş, onun varlığını təşkil etmişdir. Zaman-zaman diferensial yanaşmalar hissələrə bölünməni, ayrılmaları tənzimlədiyi kimi, inteqrasiya prosesləri də bütövləşmələrin, tamamlanmaların nəticəsi kimi meydana çıxmışdır. Bütün elm sahələrində, o cümlədən sosiologiyada və pedaqogikada inteqrasiya önəmli yer tutmuşdur. Ona görə də pedaqogikada "inteqrasiya", "inteqrativlik", eləcə də "təhsildə inteqrasiya" və sair anlayışlardan daha çox istifadə olunmağa başlanmışdır.

Müasir dünyada sürətlə gedən sosial, mədəni və texnoloji dəyişikliklər qlobal düşünmə tərzinin əhəmiyyətini xeyli artırır. Belə olan halda şagirdlər təlim prosesində ayrı-ayrı fənlər üzrə verilən bilik və bacarıqların passiv iştirakçısı olmurlar. İnteqrativlik şagirdlərə ətraf aləmin dərk edilməsinə yaradıcı idraki münasibət bəsləyən subyektlər kimi yanaşılmasına imkan yaradır. Bu, o zaman mümkün olur ki, təhsil pillələrində öyrənilən fənlər və onların əhatə etdiyi mövzular ayrı-ayrı deyil, əlaqəli, inteqrativ şəkildə tədris olunur. Digər bir tərəfdən inteqrativ kurikulum şagirdlərin dərsliklərdə verilən materiallara yaradıcı yanaşmasına kömək edir.

Təcrübə göstərir ki, tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, uşaqlarda tədqiqatçılıq meyillərinin yaranması üçün vacib şərtdir. Fəndaxili inteqrasiya müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilində səpələnmiş faktların sistemləşdirilməsidir. Bu mənada inteqrasiya olunmuş məzmun informativ cəhətdən daha tutumlu olur, şagirdlərin daha əhatəli kateqoriyalarla düşünmə bacarığı formalaşdırmalarına kömək edir. İbtidai təhsil pilləsi fənlərinin tədrisində geniş şəkildə istifadə olunan fəndaxili inteqrasiya üçün konsentrik prinsipə əsaslanan spiralvari quruluş daha xarakterikdir. Bu cür inteqrasiya prosesində dəyərlərin dərk olunması xüsusidən ümumiyə və yaxud ümumidən xüsusiyə doğru ola bilər.

Fənlərarası inteqrasiya bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır. Fənlərarası və fəndaxili münasibətlərin, sadəcə, əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə şərait yaradır. Müəllimlər pedaqoji prosesdə ondan daha səmərəli qaydada istifadə etmək imkanı qazanırlar. Bundan əlavə, fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır, şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır.

İnteqrasiya nəticəsində tədris materialının yığcamlığı təmin edilir, təkrara yer verilmir, şagirdlər artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar az vaxt içərisində çox, həm də bir-biri ilə üzvi əlaqədə formalaşmış biliklər əldə edirlər. Bu məqsədlə uşaqları inteqrativ biliklər əldə etməyə hazırlayan fənlərarası əlaqəyə geniş yer verilməlidir. Bunun təmin edilməsi üçün müəllim bütün fənlər üzrə proqram materiallarına yaxşı bələd olmalı, fənlərarası əlaqədən istifadə etməyin yollarını, onun metodikasını dərindən bilməlidir.

Fənlərarası əlaqə prosesində tədris fənni şagirdlər tərəfindən yaxşı mənimsənilir, bir neçə fənn üzrə bilik, bacarıq və vərdişlər təkrarlanır, nəticədə, biliyin şagirdlər tərəfindən sistemli mənimsənilməsi təmin edilir.

Belə qənaətə gəlmək olar ki, fənlərarası əlaqədən ardıcıl şəkildə istifadə etmək tədrisin səviyyəsini yüksəldir, şagirdlərin təfəkkürünü inkişaf etdirir, dünyagörüşünü genişləndirir. Buna görə də məktəblərdə təhsilin ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyati bacarıqların inkişaf etdirilməsi prosesi kimi baxılmalı, şagirdlər həyat boyu öyrənməyə hazırlanmalıdır.

**Rumiyyə PİRİYEVA**
***Naxçıvan Dövlət Universitetinin əməkdaşı***

*Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsi ölkəmizdə aparılan sosial-iqtisadi islahatların tərkib hissələrindən biridir. Naxçıvan Muxtar Respublikasında da ekoloji sağlamlığın təmin edilməsi və ətraf mühitin mühafizəsi məqsədilə mühüm addımlar atılır. Son illər bu sahədə görülən işlər Naxçıvan şəhərinin də simasını dəyişməklə bərabər, həm də təmiz, ekoloji cəhətdən saf bir şəhər mühitinin yaradılması ilə nəticələnmişdir. Təbii ki, həyata keçirilən tədbirlər nəticəsində şəhərimizin sanitar-epidemioloji vəziyyəti də xeyli dəyişmişdir. İsti yay günlərində mövcud epidemioloji vəziyyətin necə olduğunu öyrənmək üçün Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Oruc Əliyevlə həmsöhbət olduq:*

# Naxçıvan şəhərində sanitar-epidemioloji vəziyyət sabitdir

***– Oruc həkim, ilk olaraq, rəhbərlik etdiyiniz mərkəzin fəaliyyət istiqamətləri haqqında oxucularımıza məlumat verərdiniz.***

– Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin əsas fəaliyyəti şəhərimizdə epidemioloji vəziyyətin qorunmasını təmin etməkdən və şəhərdə fəaliyyət göstərən xidmət, ticarət və ictimai-iaşə obyektlərində sanitar-gigiyenik vəziyyətə nəzarətin diqqət mərkəzində saxlanılmasından ibarətdir. Ümumiyyətlə, Naxçıvan şəhərində sanitar-epidemioloji vəziyyətə nəzarətin təmin olunması təkcə bizim deyil, bütün vətəndaşlarımızın borcudur. Bildiyiniz kimi, şəhərimizdə aparılan tikinti-quruculuq işləri, yeni salınan park, meydan və küçələr hər birimizdən bu gözəllikləri qorumaq üçün yüksək məsuliyyət tələb edir. Bunun üçün yüksək vətəndaş mövqeyi göstərməyə çalışmalıyıq.

***– Təbii ki, görülən işlərin müəyyən bir hissəsini müxtəlif ünvanlarda aparılan sanitar-gigiyenik tədbirlər təşkil edir. Bu haqda nə deyə bilərsiniz?***

– Mütəmadi olaraq Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin Sanitariya şöbəsi tərəfindən Naxçıvan şəhərində fəaliyyət göstərən xidmət, ictimai-iaşə, ərzaq satışı ilə məşğul olan ticarət obyektlərində, kommunal müəssisələrdə, uşaq-yeniyetmə müəssisələrində sanitar-gigiyenik qaydalara və gigiyenik normativlərə əməl olunması məqsədilə yoxlamalar aparılır. Məsələn, şəhərimizdə fəaliyyət göstərən xidmət obyektlərindən gözəllik salonlarının və bərbərxanaların, hotel və yataqxanaların sanitar-gigiyenik vəziyyəti ilə maraqlanılıb, lazım olan tədbirlər görülüb. Həmçinin Naxçıvan şəhərində fəaliyyət göstərən müalicə-profilaktika müəssisələrində, istər dövlət, istərsə də özəl tibb müəssisələrində 2014-cü il ərzində Sanitariya şöbəsinin həkimləri tərəfindən 2 dəfə yoxlama aparılıb, aşkar edilən nöqsanlarla bağlı mərkəz tərəfindən lazımı göstərişlər verilib. Bundan başqa, uşaq və yeniyetmə müəssisələrində, bağça və məktəblərdə vaxtaşırı sanitar-gigiyenik yoxlamalar aparılır.

Qeyd edim ki, mərkəz tərəfindən görülən işlərin bir qismini də maarifləndirmə tədbirləri təşkil edir. Buna görə əməkdaşlarımız tərəfindən mütəmadi olaraq müxtəlif ünvanlarda, xüsusilə məktəbəqədər və digər təhsil ocaqlarında uşaqlar arasında şəxsi gigiyena qaydalarına riayət edilməsi, yoluxucu xəstəliklərdən qorunma yolları haqqında sanitariya maarifi işləri aparılır. Eyni zamanda bu müəssisələrdə fəaliyyət göstərən mətbəxlərdəki sanitar vəziyyətin qənaətbəxş olması daim diqqət mərkəzində saxlanılır, uşaq bağçalarından xörək nümunələri götürülərək mərkəzin qida laboratoriyasında təhlil olunur.

Bundan başqa, yenidoğulmuş uşaqlar arasında idarə olunan xəstəliklərə qarşı profilaktik peyvəndlərin aparılması üçün Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası və Doğum Mərkəzi vaxtaşırı olaraq peyvənd materialları ilə təmin edilir. Xəstəxanalardakı peyvənd otaqları sanitar-gigiyenik normativlərə əməl olunması baxımından epidemioloqlar tərəfindən mütəmadi olaraq nəzarətdə saxlanılır.

***– Oruc həkim, havaların isti keçməsi ilə əlaqədar ehtimal ediləcək xəstəliklərə qarşı hansı mübarizə tədbirləri aparılır?***

– Havaların isti keçməsi ilə əlaqədar bir sıra bağırsaq infeksiyalarının törədici mikroorqanizmlərinin fəallığı artdığı üçün vəba və digər xüsusi xəstəliklərə qarşı əks-epidemik tədbir kimi aprel ayından etibarən mütəmadi olaraq su mənbələri və su anbarlarında suyun xlorlanması ilə bağlı tədbirlər aparılır. Bu müddət ərzində vəbaya görə açıq su hövzələrindən su və ətraf ərazilərdən qarayara, tetanus və digər xəstəliklərə görə torpaq nümunələri götürülərək mərkəzin Xüsusi təhlükəli xəstəliklər şöbəsinin laboratoriyasında yoxlamadan keçirilib.

Naxçıvan şəhərində ət satışı ilə məşğul olan mağazalarda sanitar-gigiyenik qaydalara və gigiyenik normativlərə uyğun olaraq, həmin obyektlərdə Naxçıvan Şəhər Baytarlıq İdarəsinin əməkdaşları ilə birlikdə xlorlama işi aparılıb. Ət satışı yerlərində cari dezinfeksiya işləri görülüb, ət satışı ilə məşğul olan şəxslər tibbi laborator müayinəyə cəlb edilib. Heyvan kəsilən yerlərdə, su-kanalizasiya sistemində xlorlu əhəng məhlulu ilə dezinfeksiya işləri aparılıb. Dezinfeksiya bölməsinin əməkdaşları tərəfindən 2014-cü il ərzində Naxçıvan şəhəri üzrə yaşayış və qeyri-yaşayış binalarında, inzibati binalarda, məktəb və bağçaların dam örtüklərində və zirzəmilərində, həyətyanı sahələrdə dezinfeksiya tədbirləri həyata keçirilib. Ümumilikdə, cari ilin ötən dövrü ərzində həyata keçirilmiş və hazırda davam etdirilən tədbirlər nəticəsində şəhərimizdə sanitar-epidemioloji vəziyyətin qənaətbəxş olduğunu söyləyə bilərik. Bu vəziyyətin qorunmasında, inanırıq ki, vətəndaşlarımız da hər zaman aktivlik nümayiş etdirməyə davam edəcəklər.

***Müsahibə üçün sağ olun.***

✍ **Sona MİRZƏYEVA**

## Ordubad rayonunun ümumtəhsil məktəblərində 2014-2015-ci tədris ili üçün pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| | Məktəbin adı | Məktəblərlə rayon mərkəzi arasında məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika, Astronomiya | | Kimya | | Biologiya | | Rəsm və rəsmxət | | Fiziki tərbiyə | | Gənclərin çağırışaqədərki hazırlığı | | Musiqi | | İbtidai sinif | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1 | Ordubad şəhər 1 №-li tam orta məktəb | 1 | | | | | | | 1 | 6 | | | | | | | | | | | | | | | 1 | 4 | | | | | 2 | 10 |
| 2 | Ordubad şəhər 3 №-li tam orta məktəb | 1 | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 2 | 24 |
| 3 | Əndəmic kənd tam orta məktəbi | 4 | | | | | | | 1 | 14 | | | | | | | 1 | 8 | 1 | 12 | | | | | 1 | 4 | | | | | 4 | 38 |
| 4 | Gənzə kənd tam orta məktəbi | 9 | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | 2 | 24 |
| 5 | Aşağı Əylis kənd tam orta məktəbi | 8 | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 18 | 2 | 30 |
| 6 | Yuxarı Əylis kənd tam orta məktəbi | 11 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 7 | Dəstə kənd 1 №-li tam orta məktəb | 14 | | | | | | | | | 1 | 15 | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 20 | 3 | 47 |
| 8 | Dəstə kənd 2 №-li tam orta məktəb | 14 | | | | | | | | | | | 1 | 8 | | | | | | | | | | | | | | | | | 1 | 8 |
| 9 | Vənənd kənd tam orta məktəbi | 18 | | | 1 | 12 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 2 | 24 |
| 10 | Kələki kənd tam orta məktəbi | 26 | 1 | 18 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 18 |
| 11 | Unus kənd tam orta məktəbi | 27 | 1 | 16 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 16 |
| 12 | Düylün kənd tam orta məktəbi | 20 | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 2 | 24 |
| 13 | Çənnəb kənd tam orta məktəbi | 19 | | | 2 | 25 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 3 | 37 |
| 14 | Üstüpü kənd tam orta məktəbi | 29 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 15 | Azadkənd tam orta məktəbi | 22 | | | | | | | 1 | 12 | | | 1 | 12 | | | 1 | 8 | | | | | | | | | | | | | 3 | 32 |
| 16 | Baş Dizə kənd tam orta məktəbi | 25 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 17 | Gilançay kənd tam orta məktəbi | 28 | | | | | | | | | | | 1 | 10 | | | | | 1 | 10 | | | | | | | | | | | 2 | 20 |
| 18 | Biləv kənd tam orta məktəbi | 41 | 1 | 16 | 2 | 24 | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 6 | | | 5 | 58 |
| 19 | Behrud kənd tam orta məktəbi | 42 | | | 2 | 20 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 3 | 32 |
| 20 | Parağa kənd tam orta məktəbi | 44 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 21 | Bist kənd tam orta məktəbi | 58 | | | 1 | 12 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 24 | 3 | 48 |
| 22 | Nürgüt kənd tam orta məktəbi | 68 | | | 2 | 22 | | | | | 2 | 24 | 1 | 12 | | | 2 | 26 | | | | | | | | | | | | | 7 | 84 |
| 23 | Nəsirvaz kənd ümumi orta məktəbi | 65 | | | 1 | 24 | 1 | 24 | | | | | | | | | 1 | 8 | 1 | 12 | | | | | | | | | | | 4 | 68 |
| 24 | Ələhi kənd ümumi orta məktəbi | 62 | | | 1 | 8 | | | | | | | 1 | 4 | | | 1 | 2 | | | | | | | | | | | | | 3 | 14 |
| | **Cəmi:** | | **4** | **62** | **16** | **195** | **3** | **48** | **3** | **32** | **3** | **39** | **10** | **106** | **2** | **24** | **8** | **76** | **4** | **46** | **0** | **0** | **0** | **0** | **2** | **8** | **1** | **6** | **3** | **62** | **59** | **704** |

## Kəngərli rayonunun ümumtəhsil məktəblərində 2014-2015-ci tədris ili üçün pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika, Astronomiya | | Kimya | | Biologiya | | Əmək | | Rəsm və rəsmxət | | Fiziki hazırlıq | | Gənclərin çağırışaqədərki hazırlığı | | Musiqi | | Rus dili | | İbtidai sinif | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1 | Qıvraq qəsəbə tam orta məktəbi | | | 2 | 24 | | | | | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | | | | | 4 | 48 |
| 2 | Qarabağlar kənd 1 №-li tam orta məktəb | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 3 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | 2 | 24 |
| 4 | Şahtaxtı kənd tam orta məktəbi | | | 1 | 18 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 | 3 | 42 |
| 5 | Xok kənd tam orta məktəbi | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 | 3 | 36 |
| 6 | Qabıllı kənd tam orta məktəbi | | | 1 | 24 | | | | | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | 1 | 12 | | | | | | | 1 | 18 | 5 | 78 |
| 7 | Böyükdüz kənd tam orta məktəbi | | | | | | | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | | | 3 | 36 |
| 8 | Yeni Kərki kənd tam orta məktəbi | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 18 | 3 | 42 |
| | **Cəmi:** | | | **6** | **90** | | | | | **1** | **12** | **2** | **24** | **3** | **36** | **3** | **36** | **2** | **24** | | | | | **3** | **36** | | | | | | | **4** | **60** | **24** | **318** |


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.**
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

**Qeydiyyat №: 575**

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

**Nömrəyə məsul: Əli Cabbarov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

**Tiraj: 4020. Sifariş № 728**